Vikipediya
25 illik azad ensiklopediya

Hər kəsin redaktə edə biləcəyi azad ensiklopediya olan

# Vikipediyaya xoş gəlmisiniz!

Hal-hazırda Azərbaycanca Vikipediyada 216.067 məqalə mövcuddur.

**Məqalə yarat** **Mündəricat** **Kömək istə** **Cəsur ol!**

## Həftənin seçilmiş məqaləsi



**Arqus** — Homerin Odisseya əsərində Odisseyin əfsanəvi sədaqətli iti. Odisseyin Troya müharibəsinə yola düşməsindən əvvəl ov iti kimi yetişdirilmiş Arqus, sahibinin öldüyü güman edildikdən sonra baxımsız vəziyyətdə qalır. İyirmi il sonra Odissey İtakaya qayıtdıqda, Arqusu qocalıq və laqeydlik nəticəsində hərəkətsiz hala düşmüş, peyin yığınları arasında uzanmış və parazitlərlə örtülmüş vəziyyətdə tapır. Arqus Odisseyi görən kimi dərhal qulaqlarını aşağı salır, quyruğunu yelləyir və onu tanıyır. Dilənçi qiyafəsində olan Odissey öz kimliyini ifşa etməmək üçün itinə yaxınlaşıb onu salamlamır, lakin gizlicə göz yaşı axıdır. Sahibinin geri döndüyünü gördükdən dərhal sonra Arqus həyatını itirir.

(**Davamı...**)

## Həftənin yaxşı məqaləsi



**Əbu Firas** — X əsr ərəb şairi və dövlət xadimi. O, Seyfəddövlənin əmisioğlu və X əsrdə Şimali Suriya ilə Yuxarı Mesopotamiyada hakimiyyət sürmüş Həmdanilər sülaləsinin üzvü idi. Əbu Firas Seyfəddövlənin xidmətində Mənbic hakimi və saray şairi kimi fəaliyyət göstərmiş, eyni zamanda əmisioğlunun Bizans imperiyasına qarşı apardığı müharibələrdə iştirak etmişdir. O, 959/962-ci illərdə bizanslılara əsir düşmüş və bir neçə il onların paytaxtı Konstantinopolda saxlanılmışdır. Məhz bu dövrdə o, ən məşhur əsəri hesab edilən "*Rumiyyat*" adlı şeir toplusunu qələmə almışdır. 966-cı ildə fidyə müqabilində azad edilmiş, 968-ci ildə isə Seyfəddövlənin varisi olan qardaşıoğlu Səədəddövləyə qarşı qiyam qaldırdığı zaman öldürülmüşdür. O, klassik ərəb poeziyasının ən böyük nümayəndələrindən biri hesab olunur.

(**Davamı...**)

## Həftənin seçilmiş siyahısı

**FİFA Dünya Kubokunda qeydə alınmış het-triklərin siyahısı** — bu siyahıya **FİFA Dünya Kuboku** finalları tarixində bir futbol matçında üç və ya daha çox qol vuran oyunçular daxil edilmişdir. *(Dünya Kuboku seçmə matçları daxil deyil.)* Bir Dünya Kuboku matçında het-trik (üç və



ya daha çox qol vurmaq) nisbi olaraq olduqca nadirdir. 18 dəfə təşkil edilən Dünya Kubokunda oynanan 700-dən çox matçda idmançılar yalnız 48 dəfə bu performansı həyata keçirə bilmişlər. Futbolun və Dünya Kubokunun rəhbərliyində olan FİFAnın bir oyunçunun üç və ya daha çox qol atdığını rəsmi olaraq təsdiqləməsi ilə oyunçunun performansı het-trik olaraq qəbul edilir.

Dünya kubokunda ilk het-trik etmə müvəffəqiyyətini ABŞ milli futbol komandasından Bert Patenaude adlı oyunçu Paraqvay milli futbol komandasına qarşı FİFA Dünya Kuboku 1930da reallaşdırdı. Ən son olaraq da FİFA Dünya Kuboku 2014-də Almaniya milli futbol komandasından Tomas Müller Portuqaliya milli futbol komandasına qarşı oyunda həyata keçirmişdir.

(**Davamı...**)

## Günün seçilmiş şəkli



## Xəbərlər



- Venesuelada baş verən 7,2 və 7,5 maqnitudalı **iki ardıcıl zəlzələ** *(şəkildə)* nəticəsində 3600-dən artıq insan həlak olub, 16700-dən artıq insan yaralanıb, on minlərlə insan itkin düşüb.
- **Nikol Paşinyanın** partiyası parlament seçkilərində qələbə qazanıb.
- Azov dənizinin Taqanroq körfəzində "Natra" və "Zirkon" yük gəmilərinə **dron hücumları edilib**.

**Aktual hadisələr:** 2026 FİFA Dünya Kuboku • İran müharibəsi • Rusiya–Ukrayna müharibəsi • Sudanda vətəndaş müharibəsi

**Son ölümlər:** Həməd ibn Xəlifə Sani, Bonni Tayler, Telman Salahov, Nurlana Əliyeva, Hidayət Orucov, Jaba Dvali

## Bilirsinizmi?

- Afrikanın ən məşhur memarlıq abidələrindən biri olan **Cənnə Böyük məscidi** *(şəkildə)* qədim şəhər Cənnə ilə yanaşı 1988-ci ildə "UNESCO" tərəfindən Ümumdünya İrsi siyahısına əlavə olunub.
- **Bakı Şəhər İcra Hakimiyyətinin binası** 1900–1904-cü illərdə memar İosif Qoslavskinin layihəsi əsasında barokko stilində inşa edilmişdir. Bina memar Qoslavskinin son əsəridir.
- Fransanın simvolu sayılan Eyfel qülləsinin üzərinə **72 nəfər şəxsin** adı yazılmışdır.
- Leonid Brejnev və Georgi Jukov **4 dəfə** "Sovet İttifaqı Qəhrəmanı" adı alan yeganə şəxslər olmuşdurlar.
- **Nəbi Xəzri** dənizi hədsiz sevdiyindən, xəzri küləyinin də insanlara dəniz ətrini bəxş etdiyini düşündüyündən 1958-ci ildə "Xəzri" təxəllüsünü götürmüşdür.



## Tarixdə bu gün



**16 iyul**: İslam təqviminin başlanğıc günü
622 — İslam təqviminin başlanğıc günü.
919 — Ərdəbil yaxınlığında döyüş baş vermişdir.
1377 — İngiltərə kralı II Riçardın *(şəkildə)* tacqoyma mərasimi keçirilmişdir.
1826 — İkinci Rusiya–Qacar müharibəsi başlamışdır.
1931 — Efiopiyanın ilk konstitusiyası imzalanmışdır.
1979 — İraq prezidenti Əhməd Həsən Əl-Bəkr istefa vermiş, onun yerinə Səddam Hüseyn keçmişdir.
1983 — Siciliyada baş verən helikopter qəzası nəticəsində 20 nəfər həlak olmuşdur.

Digər günlər: 15 iyul – **16 iyul** – 17 iyul

## Kömək səhifələri

- Vikipediyaçılar
- Beş əsas prinsip
- Qaralama dəftəri
- Şablonlar
- Yeni başlayanlar üçün təlimat
- Tez-tez soruşulan suallar

**Vikipediya**

# Vikimedia Fondunun digər layihələri

**Vikilüğət**
Lüğət və tezaurus

**Vikimənbə**
Azad əsər kitabxanası

**Vikisitat**
Sitatlar toplusu

**Vikixəbər**
Azad xəbər mənbəyi

**Vikikitab**
Azad dərsliklər və təlimat kitabları

**Vikiversitet**
Tədris materialları

**Vikinövlər**
Bioloji növlərin sistematikası

**Vikianbar**
Ortaq media anbarı

**MediaViki**
Viki proqram təminatının təkmilləşdirilməsi

**Vikisəyahət**
Azad səyahət təlimatçası

**Vikidata**
Ortaq verilənlər bazası

**Meta-Viki**
Vikimedia koordinasiya mərkəzi

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Ana_səhifə&oldid=8423296"